***2016-cı il iyulun 15-də qardaş Türkiyə xain bir çevriliş cəhdi ilə üzləşmişdi. FETÖ terror təşkilatı Türkiyə Silahlı Qüvvələrinə sızdırdığı adamlardan istifadə edərək, dövlətə və dövlətin təmsil olunduğu dəyərlərə qarşı xaincəsinə bir hücuma cəhd göstərmişdi. Terrorçular bir çox idarələri ələ keçirməyə çalışmışdılar. Lakin Türkiyə xalqı növbəti dəfə irticaya və separatizmə qalib gələrək milli dövlətini, legitim hakimiyyəti və ölkənin bütövlüyünü qorumuşdu. Türkiyə bütün məsələlərdə Azərbaycanı dəstəklədiyi kimi, Azərbaycan da o vaxt Türkiyənin yanında olduğunu nümayiş etdirmiş və qardaş ölkəyə dəstəyini göstərmişdi.***



# Azərbaycan-Türkiyə dostluğu sarsılmazdır

Dünyada analoqu olmayan Azərbaycan-Türkiyə münasibətləri təkcə ortaq dəyərlərə deyil, həm də sədaqətə, hörmətə və etimada əsaslanır. Türkiyə 1991-ci ildə keçmiş Sovet İttifaqının dağılmasından sonra Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olmuşdu. O vaxtdan iki ölkə arasında güclü iqtisadi, siyasi və hərbi əlaqələr qurulmuşdur. Ən əsası, hazırda hər iki ölkə liderlərinin münasibətlərinin yüksək səviyyədə olması və xalqlarımızın milli dəyərlərinə böyük hörməti Azərbaycan-Türkiyə münasibətlərinə yeni çalarlar əlavə edir. Türkiyənin Azərbaycan üçün beynəlxalq aləmdə müttəfiq və dayaq olması hər iki dövlətin gücünə güc qatır. Ona görə də, iki dövlət arasındakı münasibətlərin həm də beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında inkişaf etməsi heç kimi təəccübləndirmir. Eyni zamanda, bu gün Azərbaycan və Türkiyənin həyata keçirdiyi və planlaşdırdığı layihələr təkcə iki qardaş ölkə üçün deyil, həm də geniş bir region, ortaq dəyərlər və talelərlə birləşən xalqlar üçün də nəzərdə tutulmuşdur.

***(ardı 5-ci səhifədə)***

# Azərbaycan-Türkiyə dostluğu sarsılmazdır

*(əvvəli 1-ci səhifədə)*

Qürurverici haldır ki, Azərbaycan və Türkiyə qlobal miqyasda mənəvi və siyasi baxımdan bir-birinə ən yaxın olan ölkələrdir. Siyasi müşahidəçilər vurğulayırlar ki, bu gün Azərbaycan və Türkiyə ortaq siyasi iradə və gələcək məqsədlərə nail olmaq üçün birgə çalışmaq öhdəliyinə malik olan müttəfiqliyin unikal nümunəsidir. İki ölkə arasında möhkəm həmrəylik türk dünyasında əlaqələrin inkişafı baxımından da əhəmiyyətlidir. Bu, yeni dünya düzəninin formalaşması zamanı dövrün çağırışlarına cavab verən türk dövlətləri üçün milli strateji hədəflərə çatılmasında zəmin və imkan yaradır, türkdilli dövlətlər qarşısında yeni perspektivlər açır. Bununla yanaşı, təkcə türk dünyasının deyil, həm də tarix boyu bizimlə eyni ərazidə yaşayan dost xalqların etibarlı gələcəyi Azərbaycan və Türkiyənin hazırladığı strateji hədəflər və yol xəritələri ilə təmin edilir.

Əlbəttə, Türkiyənin sürətli yüksəlişi, dünyanın bir sıra strateji bölgələrində milli maraqlarını qoruması dünyadakı bəzi qüvvələrin xoşuna gəlmir. Amma hər kəs də unutmur ki,Türkiyə həm Avropada, həm də Asiyada yerləşdiyi coğrafi mövqeyə görə, həm də NATO-nun aparıcı üzvlərindən biri olduğuna görə Yaxın Şərqdə mühüm rol oynayır. Bununla belə, Türkiyənin beynəlxalq məsələlərin müakirəsində söz sahibi kimi qismində çıxış etməsi və milli maraqlarına qarşı olan istənilən qeyri-konstruktiv fəaliyyətlərə sərt mövqe nümayiş etdirməsi və müəyən təhdidlərin



neytrallaşdırılmasına yönəlik konkret addımlar atması, əlbəttə ki, bəzi ölkələrdə və siyasi ittifaqlarda qıcıq doğururdu. Buna görə də, 15 iyul hadisələrini ortaya atmaqla Türkiyənin milli birliyinə və sabitliyinə, eyni zamanda, siyasi və ərazi bütövlüyünə sağalmaz zərbə vuracaq hərbi çevrilişə cəhd edildi. Lakin qardaş Türkiyə xalqı Prezident Rəcəb Tayyib Ərdoğanın çağırışına qulaq asaraq, onun liderliyi altında terrorçulara məkrli niyyətlərini həyata keçirməyə imkan vermədilər. Prezident İlham Əliyev qardaş ölkə liderinə ünvanladığı məktubunda qardaş Türkiyə xalqının Vətəninin müstəqilliyini, suverenliyini müdafiə edərək, dövlətçiliyə və demokratiyaya sahib çıxaraq əsl şücaət və qəhrəmanlıq nümunəsi göstərdiyini, dünyaya bir daha qüdrətini və əzəmətini sübut etdiyini vurğulamışdır.

Xüsusilə qeyd etmək lazımdır ki, siyasi mütəxəssislər 15 İyul tarixli dövlət çevrilişinə cəhdin qarşısının alınmasında xalqın Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ətrafında birləşməsini ən vacib faktor kimi qiymətləndirirlər. Çevriliş cəhdinin qarşısının alınması, qardaş ölkə liderinin prinsipiallığı və qətiyyətliliyi, eyni zamanda, xalqın hakimiyyətlə yekdilliklə birləşməsi ən vacib amillərdən biri olmuşdu. Prezident İlham Əliyev məktubunda bu məqama xüsusi diqqət ayırmışdır: “Qardaş xalqınızın əsl lideri kimi Sizin şəxsinizə olan sonsuz inam və etimadı, Sizin ətrafınızda sıx birləşməsi Türkiyə dövlətinə qarşı yönəlmiş xəyanətin qarşısını almaqda, ölkənizin bu çətin sınaqdan başıuca çıxmasında həlledici rol oynadı. Milli birliyin və həmrəyliyin, sarsılmaz iradənin və güclü liderliyin təntənəsi olan bu möhtəşəm zəfər Türkiyə dövlətçiliyinin tarixinə əbədi olaraq həkk olunmuşdur”.

2016-cı ilin dövlət çevrilişinə cəhd zamanı Azərbaycan bütün gücü ilə Türkiyənin yanında olmuşdu. Hadisənin ilk anlarından böyük narahatlığını ifadə edən Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə dövlətinə və Prezident Rəcəb Tayyib Ərdoğanın legitim hakimiyyətinə olan dəstəyini açıq şəkildə ifadə etmişdi. Prezident İlham Əliyev məktubunda bununla bağlı vurğulamışdır: “Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən qardaş Türkiyənin yanında olaraq və həmrəylik göstərərək bu xəyanətkar dövlət çevrilişi cəhdini ən qəti şəkildə qınamışdır. “Bir millət, iki dövlət” prinsipi əsasında həm sevincli, həm də kədərli günlərdə bir-birinə dayaq olan xalqlarımız məhz çətin anlarda qarşılıqlı dəstək göstərərək qardaşlığını sübut edirlər. Biz bundan sonra da bütün məsələlərdə Türkiyənin yanında olacağıq.”

Bir sözlə, bu günün reallığı belədir ki, Azərbaycan və Türkiyə arasında qardaşlıqdan doğan güclü və sarsılmaz əlaqələr mövcuddur. Ölkə başçısının məktubda qeyd etdiyi kimi, qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Bununla yanaşı, Prezident İlham Əliyev əmin olduğunu da açıqlamışdır ki, bir ay əvvəl imzalanmasının birinci ildönümü qeyd edilən Şuşa Bəyannaməsində müəyyənləşdirilmiş müttəfiqlik hədəflərinə doğru bundan sonra da inamla addımlamağa davam edəcəyik.

**_Səbuhi MƏMMƏDOV,_**
**_“Xalq qəzeti”_**

Xalq qəzeti .- 2022.- 17 iyul.- S.1;5.